
Təhsil101

DAHA YAXŞI
BİR TƏDRİS İLİ MÜMKÜNDÜR

Bir Tədris İli Necə Keçməlidir?

Öyrənmə, planlaşdırma və imtahan hazırlığı üçün tam sistem.



PLAN QUR

İRƏLİLƏ

PİS GÜN OLACAQ

DAVAM ET

PLANLA
MÜŞAHİDƏ ET
DOLDUR
NƏTİCƏNİ GÖR

Plan pozula biler.
Sistem dayanmasın.

Orxan Hüseyn
RİYAZİYYAT MÜƏLLİMİ VƏ TƏHSİL MENTORU

www.tehsil101.az

Bir Tədris İli Necə Keçməlidir?

Öyrənmə, planlaşdırma və imtahan hazırlığı bələdçisi

Müəllif	**Orxan Hüseyn — riyaziyyat müəllimi və təhsil mentoru**
Nəşr	**Təhsil101 · tehsil101.az**
Praktik əlavə	**Tədris İli İş Dəftəri — 16 doldurula bilən forma**

Bu kitab nə edir?

Bu kitab bir tədris ilinin idarəsidir: vaxt, ardıcıllıq, ölçmə və düzəliş. Mövzunun necə öyrənildiyini, diqqətin necə idarə olunduğunu, imtahan otağında nə edildiyini və ixtisasın necə seçildiyini ayrıca Təhsil101 vəsaitləri izah edir — bu kitab onların hamısının il boyu hansı ardıcıllıqla işə düşdüyünü göstərir.

Burada “özünə inan” tipli cümlələr yoxdur. Onlar yalan deyil, sadəcə faydasızdır: səni iyirmi dəqiqəlik ruh yüksəkliyinə çıxarır, sonra eyni yerdə buraxır.

Necə istifadə etməli?

01

Qələmlə oxu

Cız, qeyd et, razı olmadığın yerə sual işarəsi qoy.

02

Formaları doldur

Doldurulmasa, kitab yalnız oxu materialı olaraq qalır.

03

Birdən başlama

Birinci həftə bir alət, ikinci həftə növbətisi.

> **İKİ HİSSƏLİ SİSTEM**
>
> Bu kitab Tədris İli İş Dəftəri ilə birlikdə işləyir. Dəftərdə 16 çap edilə və doldurula bilən forma var (17 istifadə səhifəsi). Kitabda hansı formaya istinad edilirsə, həmin forma dəftərdə eyni nömrə və eyni adla yerləşir.
>
> Sistemin nüvəsi dörd formadır: **Forma 7** həftəlik plan · **Forma 9** təkrar izləmə · **Forma 10** səhv dəftəri · **Forma 11** sınaq analizi.

© Orxan Hüseyn / Təhsil101. Bütün hüquqlar qorunur.

Bu vəsait şəxsi və tədris məqsədilə istifadə üçün hazırlanıb. Müəllifin icazəsi olmadan tam və ya qismən çoxaldılması, kommersiya məqsədilə yayılması, satılması, yenidən nəşr edilməsi və ya başqa platformalarda paylaşılması qadağandır.

Vəsaitdəki tövsiyələr ümumi maarifləndirici xarakter daşıyır; tibbi və ya psixoloji müalicə məsləhəti deyil. Sağlamlıq, yuxu və ya davamlı emosional çətinliklərlə bağlı narahatlıq varsa, uyğun mütəxəssisə müraciət edilməlidir. İmtahan tarixləri, format və qəbul qaydaları ildən-ilə dəyişə bilər; kitabda dövrlər göstərilir, konkret tarix verilmir — dəqiq məlumat üçün cari ilin rəsmi DİM təqvimini yoxlayın.

MÜNDƏRİCAT

Kitab səkkiz bölmədən ibarətdir

Hər bölmə bir sual ilə əlaqəlidir. Ardıcıl oxumaq ən yaxşı yoldur, amma bu gün hansı problemin varsa, birbaşa həmin bölməyə keç.

№	Bölmə	Hansı suala cavab verir
1	**Başlanğıc nöqtəsi**	Haradayam?
2	**Hədəf və ilin xəritəsi**	Hara getmək istəyirəm və il necə bölünür?
3	**ÖYTDT — mövzunu bilməyin beş addımı**	Mövzunu necə öyrənib saxlayım?
4	**Plan: ay, həftə, gün**	Vaxtımı necə faydalı idarə edim?
5	**Səhv və sınaq**	İrəliləyişimi necə ölçəcəyəm?
6	**Plan pozulanda**	Pis gündə və zəif nəticədən sonra nə edim?
7	**İmtahan dövrü**	Son həftələrdə nəyi dəyişim?
8	**Sənin sinfin**	9, 10 və 11-ci sinifdə fərq nədir?
—	**Yekun: Mənim Tədris Sistemim**	Hamısı bir səhifədə

> **ÜÇ TƏTBİQ DAYANACAĞI**
>
> Kitabda üç yerdə dayanacaq var: 2-ci bölmənin sonunda, 4-cü bölmənin sonunda və 8-ci bölmənin sonunda. Hər biri 4–5 dəqiqəlikdir. Oxumaq bilik yaradır, yazmaq qərar yaradır — dayanacaqlarda mütləq dayan.

Sən hansı şagirdsən?

“Keçmiş mövzuları bilmirəm.”	1-ci bölmə, sonra 3-cü bölmə.
“Oxuyuram, nəticə istəyim kimi deyil.”	3, 4 və 5-ci bölmələr.
“Çox işləyirəm, yoruluram, nəticə artmır.”	4 və 6-cı bölmələr.

BAŞLAMAZDAN ƏVVƏL

İlk iki həftə

Kitabı bir gündə oxuyub sabahdan hər şeyə başlamaq ən çox rast gəlinən səhvdir. Sistem birdən qurulmur — iki həftəyə yayılır. Aşağıdakı cədvəl kitabın bütün alətlərini işə salmaq üçün ən qısa yoldur.

Gün	Nə edirsən	Hansı bölmə / forma
1-ci gün	Keçən ilin üç sualına cavab yaz. Bal yox, davranış.	Bölmə 1 · Forma 1
2–4-cü gün	Bir fənn üçün bilik xəritəsini çıxar, sonra qalan fənləri tamamla.	Bölmə 1 · Forma 2
5-ci gün	Nəticə hədəfini və onu dəstəkləyən üç davranış hədəfini yaz.	Bölmə 2 · Forma 3
6-cı gün	İlk həftəlik planı qur: əvvəl sabit bloklar, sonra dərs vaxtı.	Bölmə 4 · Forma 7
7-ci gün	Səhv dəftərini aç və son sınağından üç səhvi yaz.	Bölmə 5 · Forma 10
8–10-cu gün	Bir mövzunu ÖYTDT ilə tam apar: öyrən, yoxla, tətbiq et, düzəlt.	Bölmə 3
11-ci gün	Təkrar cədvəlinə başla: bu həftə öyrəndiyin üç mövzunun tarixlərini yaz.	Bölmə 3 · Forma 9
12–13-cü gün	Telefon üçün yalnız iki qayda seç və tarixini yaz.	Bölmə 4 · Forma 13
14-cü gün	Həftəlik dörd rəqəmi yaz və növbəti həftənin planını qur.	Bölmə 5 · Forma 7

İKİ HƏFTƏDƏN SONRA

Əlində işlək bir sistem olacaq: həftəlik plan, təkrar cədvəli, səhv dəftəri və ÖYTDT ilə keçirilmiş ən azı bir mövzu. Qalan formalar ilin gedişində, ehtiyac yarandıqca əlavə olunur — hamısını birdən doldurmağa çalışma.

BİR ŞEYİ ƏVVƏLDƏN QƏRARLAŞDIR

Minimum Gün planını elə indi seç (Bölmə 6): 10, 15 və ya 25 dəqiqə. Pis gün mütləq gələcək. Həmin gün nə edəcəyini əvvəlcədən bilməsən, sistemin ilk çətin həftədə dayana bilər.

BÖLMƏ 1

Başlanğıc nöqtəsi

Naviqasiya proqramı marşrut qurmazdan əvvəl bir şeyi bilməlidir: sən haradasan. Şagirdlərin çoxu hədəfini bilir, başlanğıc nöqtəsini bilmir — ona görə də planları ya çox asan, ya da həyata keçirilməz olur.

Keçən ili balla yox, davranışla oxu

Yeni tədris ilinə başlamazdan əvvəl bir işi bitirmək lazımdır: keçən ili düzgün analiz etmək. Şagirdlər bunu ya heç etmir, ya da səhv edir: “Keçən il pis idi, çünki tənbəllik etdim.” Bu, analiz deyil — özünə verilən qiymətdir. Bu cümlədən sabah nə edəcəyini öyrənə bilmirsən.

Zəif analiz	Faydalı analiz
“Riyaziyyatdan zəifəm.”	“Mövzunu başa düşürəm, amma məsələ həllinə keçəndə çətinlik çəkirəm. Deməli, məsələ həlli təcrübəm azdır.”
“Tənbəllik etdim.”	“Həftənin ilk üç günü oxuyurdum, cümə və şənbə oxumurdum, bazar günü də başlaya bilmirdim.”
“Vaxtım çatmadı.”	“Axşam ən yaxşı saatlarımı telefonda keçirirdim.”
“İmtahanda həyəcanlandım.”	“İlk suallardan ikisini həll edə bilmədim və qalan vaxtın çoxunu narahatlıq içində keçirdim.”

Sağ sütundakı hər cümlədən sabah ediləcək konkret bir iş çıxır. Sol sütundan heç nə çıxmır. Nəticə azalanda səbəb adətən “ümumiyyətlə ağır il”də olmur, konkret bir həftədə olur — təqvimi aç və dəyişikliyin başladığı həftəni tap.

ÜÇ SUAL

1. Nəyi yaxşı etdim və bu il də davam etdirməliyəm? (ən azı iki şey)
2. Nəyi etmədim və bu, mənə nəyə başa gəldi? (nəticəsini də yaz)
3. Nəyi etdim, amma faydasız idi? (rəngli marker, səliqəli köçürmək, çoxlu məsələ həll edib səhv analizi etməmək, saatlarla sadəcə video izləmək və s.)

İŞ DƏFTƏRİ

Forma 1 · Tədris İli Başlanğıc Anketi. Mükəmməl yazmağa çalışma — dürüst yaz.

Bilik xəritəsi: mövzu-mövzu ölç

“Riyaziyyatda boşluğum var” cümləsi bir hissdir. Real ölçü belə olmalıdır: rasional ifadələr — izah edə bilirəm; kvadrat tənliklər — qismən bilirəm; funksiya qrafikləri — öyrənilməyib. Birinci cümlə ilə sabah nə edəcəyini bilmirsən; ikincisi ilə hansı mövzunu açacağını dəqiq bilirsən.

Səviyyə	Mənası
1 · Öyrənilməyib	Mövzunu ümumiyyətlə açmamışam
2 · Qismən bilirəm	Tanışdır, amma özüm izah edə bilmirəm
3 · İzah edə bilirəm	Kitab bağlı halda mövzunu izah edirəm
4 · Köməksiz tətbiq edirəm	Tanımadığım yeni məsələni köməksiz həll edirəm

Səviyyəni necə tapmalı? Üç üsuldan birini seç. Mündəricat üsulu: keçən ilin dərsliyinin mündəricatını aç və hər mövzunun qarşısına səviyyəni yaz — 20 dəqiqə çəkir. Üç sual üsulu: hər mövzudan asan, orta və çətin bir sual seç. İzah üsulu: mövzunu digər şəxsə və ya öz-özünə izah et; izah edə bilmirsənsə, hələ yaxşı öyrənməmisən.

MİF

“Mövzuya baxanda tanış gəlirsə, deməli bilirəm.” Mətni oxuyanda “bunu görmüşəm” hissi yaranır. Tanımaq asandır, xatırlamaq çətindir — imtahanda isə səndən xatırlamaq tələb olunur.

Başlanğıc qiymətləndirmə yalnız zəiflik axtarmaq deyil. Güclü olduğun fənnə də kifayət qədər vaxt sərf etməlisən. Bal həmişə zəif fənn və ya mövzudan toplanmır: bəzən yaxşı bildiyin fənndən və ya mövzulardan səhv etməmək daha çox bal qazandırır.

İŞ DƏFTƏRİ

Forma 2 · İlin Başlanğıc Qiymətləndirməsi. Bu gün bir fənn üçün mündəricat üsulunu tətbiq et, qalan fənləri həftə ərzində tamamla.

TƏHSİL 101
UĞUR TƏSADÜF DEYİL, SEÇİMDİR.

BÖLMƏ 2

Hədəf və ilin xəritəsi

Hədəf bal deyil. Hədəf — səni o bala aparan davranışdır. Bu bölmədə hədəfi sabah axşama qədər kiçildir, sonra ili beş mərhələyə bölürük.

Bal yox, davranış

Sentyabrda ən çox eşidilən cavablar bunlardır: “600 bal yığacağam”, “bu il əla oxuyacağam”. Növbəti sual adətən cavabsız qalır: sabah saat 17:00-da bunun üçün konkret nə edəcəksən? Çünki bu cümlələr hədəf deyil — arzudur.

	Nəticə hədəfi	Davranış hədəfi
Nümunə	“600 bal”	“Həftədə 5 gün dərs + həftəlik təkrar”
Nə vaxt bilinir?	ilin sonunda	hər gün axşam
İdarə edirsən?	qismən	böyük ölçüdə bəli
Alınmayanda	“bacarmadım”	“5 gündən 3-nü etdim, düzəldərəm”

Yaxşı davranış hədəfinin üç şərti: ölçülə bilən (“hər axşam 20 dəqiqə keçmiş mövzu təkrarı”, “çox oxuyacağam” yox); davranış səviyyəsində (“hər gün 15 məsələ həll edib səhvləri yazacağam”); ən pis gündə də mümkün olan. Yazılı şəkildə dəqiqləşdir: nə, hansı gün, hansı saatda, harada. “Riyaziyyat oxuyacağam” yox — “bazar ertəsi 17:30-da otağımda riyaziyyatdan 15 məsələ”.

Hədəfi kiçilt: il → ay → həftə → gün. İllik: 9–11-ci sinif mövzularını tamamlamaq. Aylıq: oktyabr — rasional ifadələr, kvadrat tənliklər, funksiyalar. Həftəlik: rasional ifadələr + keçən həftənin təkrarı. Gündəlik: rasional ifadələr, 12 məsələ + dünənin təkrarı.

Yuxarıdan aşağı qurursan — aşağıdan yuxarı yoxlayırsan: “Bu gündəlik planı davamlı tətbiq etsəm, illik hədəfimə çatıramm?” Cavab “xeyr”dirsə, ya gündəlik planı artır, ya illik hədəfi real hala gətir. Üçüncü variant — “birtəhər çatdıraram” — hər il ən çox əməl edilməyən variantdır.

İSTİQAMƏT BİLİNMİRSƏ

Hədəf ixtisas planındakı sətirləri müəyyən edir: hansı blok, hansı fənlər, hansı bal aralığı. Cavab yoxdursa, plan “ümumiyyətlə yaxşı oxumaq” olur — və ümumi plan icra olunmur. İki-üç variantın varsa, hamısında ortaq olan fənlərə üstünlük ver: bu, hansını seçsən də itirilməyən vaxtdır. Heç bir variant yoxdursa, plana araşdırma sətri əlavə et: ayda bir saat. Qərar vermək ilə qərar verməyə hazırlaşmaq fərqli şeylərdir; bu yaşda ikincisi tələb olunur.

İŞ DƏFTƏRİ

Forma 3 · Hədəf Müəyyənləşdirmə.

İlin beş mərhələsi

Şagirdlərin çoxu tədris ilini uzun bir blok kimi görür. Bu təsəvvür baha başa gəlir, çünki aylar eyni deyil: sentyabrda əsas iş davamlı sistem qurmaqdır, fevra və martda isə təkrar və çoxlu sınaqlar etməkdir.

Mərhələ	Ediləcəklər	Edilməyəcəklər	Yoxlama sualı
1 · Sistem qurmaq sentyabr	Başlanğıc qiymətləndirməni bitir · Dərs saatını təyin et · Səhv dəftərini başlat	Beş fənni eyni anda açmaq · "Mükəmməl sistem" axtarışında video izləmək	Dörd həftədən ən azı üçündə planı icra etdimmi?
2 · Baza və davamlılıq okt–noy	Həftədə 1–2 mövzu bloku · Hər həftə keçmiş dərslərə qayıt · İlk sınaqlar və analiz	Sınaq balına görə panika · Yalnız sevdiyin fənni oxumaq · Təkrarı təxirə salmaq	Sentyabr mövzularını indi izah edə bilirəmmi?
3 · Dərinləşmə dek–yan	Hər mövzudan çətin sual · Qarışıq məşq · Yarımil sonunda böyük analiz	Tətildə sistemi tam dayandırmaq · Asan suallarla "yaxşı gedirəm" hissi yaratmaq	Hansı mövzular hələ tamamlanmayıb və onlar üçün bitirmə tarixi varmı?
4 · Sınaq və boşluqlar fev–mart	Sınağı imtahan şəraitində ver · 7 addımlı analiz · Nəticəni həftəlik plana sal	Yalnız bala baxıb kənara qoymaq · Ard-arda sınaq verib analiz etməmək	Eyni səhv növü təkrarlanırmı?
5 · İmtahan rejimi öz imtahan dövrün	Səhv dəftərini yenidən oxu · Strategiyanı sınaqlarda məşq et	Gecə rejiminə keçmək · Başqalarının balı ilə müqayisə · Sistemi son həftədə dəyişmək	Strategiyam sınaqlarda fayda verdimi?

Beşinci mərhələ hər sinifdə eyni vaxta düşmür: 9-cu sinifdə adətən aprelə, 11-ci sinifdə buraxılış üçün fevralın sonu – martın əvvəlinə, blok/qəbul üçün mayın sonuna qədər. 10-cu sinifdə imtahan yoxdur — bu mərhələ ilin sonuna qədər davam edən möhkəmləndirmə dövrüdür (8-ci bölmə). Dövrlər təxminidir; dəqiq tarix üçün cari ilin DİM təqvimini yoxla.

İlin nisbətləri belə dəyişir: sonuna doğru yeni mövzunun payı azalır, təkrar və analizin payı artır. Hər mərhələdə "edilməyəcəklər" siyahısı "ediləcəklər" qədər vacibdir.

> İŞ DƏFTƏRİ
>
> **Forma 4 · İllik Yol Xəritəsi** — beş mərhələnin yoxlama tarixlərini öz təqvimində işarələ.

DAYANACAQ 1

Başlanğıc və hədəf

4 dəqiqə. Oxumaq bilik yaradır, yazmaq qərar yaradır.

Keçən ildən dayandıracağım 1 davranış:
Ən böyük boşluğum hansı fənn və mövzudadır?
Bu ilin nəticə hədəfim və onu dəstəkləyən 2 davranış hədəfim:
Beşinci mərhələ mənim təqvimimdə hansı dövrə düşür?

TƏHSİL 101
UĞUR TƏSADÜF DEYİL, SEÇİMDİR.

BÖLMƏ 3 · KİTABIN NÜVƏSİ

ÖYTDT — mövzunu bilməyin beş addımı

Şagirdlərin ən çox istifadə etdiyi ölçü vahidi saatdır: “Bu gün 4 saat oxudum.” Problem odur ki, saat xərcdir, öyrənmə nəticədir. Dörd saat oturub yarım saatlıq öyrənmə etmək mümkündür.

> **“Mövzunu keçdim” ≠ “mövzunu bilirəm.”**

Ö	Y	T	D	T
ÖYRƏN	**YOXLA**	**TƏTBİQ ET**	**DÜZƏLT**	**TƏKRARLA**
Mövzunu ilk dəfə mənimsəyirəm	Kitab bağlı halda nəyi izah edə bilirəm?	Məsələdə tətbiq edə bilirəmmi?	Səhvim harada və hansı növdən idi?	Bunu bir ay sonra da bacaracağammı?

Ardıcıllıq təsadüfi deyil. Əvvəl öyrənirsən, sonra yadında qalanı yoxlayırsan, sonra onu məsələdə tətbiq edirsən — və məhz orada nəyi bilmədiyin üzə çıxır. Səhvi düzəldirsən, sonra təkrar edirsən ki, düzəldilmiş bilik qalsın. Təkrar ən sonda gəlir, çünki səhvi düzəltmədən təkrar etsən, səhvi də təkrar edirsən.

Ö · Öyrən — mövzunu hissələrə ayır

Bir mövzunu açanda əvvəl 3–5 hissəyə böl və hər hissəni ayrıca tamamla. Hər hissədən sonra bir dəqiqəlik yoxlama: “bunu öz sözlərimlə deyə bilirəmmi?” Deyə bilmirsənsə, növbəti hissəyə keçmə — ikinci hissə birincinin üzərində qurulur.

Nümunə — kvadrat tənliklər: ümumi forma · diskriminant · kök düsturu · Viyet teoremi · mətn məsələləri.

NƏ ETMƏLİ?

Bu gün açacağın mövzunu vərəqin yuxarısında 3–5 hissəyə böl. Sonra birinci hissədən başla.

Y · Yoxla — kitab bağlı halda yaz

Əgər bu kitabdan yalnız bir şey götürəcəksənsə, bunu götür: öyrəndiyini yoxlamaq öyrənmənin ölçülməsi deyil — öyrənmənin özüdür.

01 **Bağla.** Dərsliyi və qeydini bağla, qarşında yalnız boş vərəq olsun.

02 **Yaz.** Beş dəqiqə ərzində yadına düşən hər şeyi yaz: tərifər, düsturlar, tipik məsələ növləri.

03 **Aç və müqayisə et.** Yazmadıqlarını fərqli rənglə əlavə et — bu rəngli hissələr sənin real boşluqlarındır.

04 **Sabah bir də et.** Üç dəqiqə. Bu dəfə daha çoxu yadına düşəcək.

TEZ-TEZ EDİLƏN SƏHV

Yoxlamanı kitab hələ açıq ikən etmək. Bu halda yazdığın şey yaddaşından yox, gözünün önündəki səhifədən gəlir. Yoxlama yalnız kitab bağlı olanda edilməlidir.

NƏ ETMƏLİ?

Bu axşam öyrəndiyin mövzudan 10 dəqiqə: kitabı bağla, düsturları və qaydaları öz sözlərinlə yaz, sonra müqayisə et.

T · Tətbiq et — bildiyini tanımadığın məsələdə istifadə et

Şagirdlərin çoxu birinci iki addımda dayanır: öyrənir, bir dəfə özünü yoxlayır və növbəti mövzuya keçir. Sonra sınaqda eyni mövzu tanımadığı formada qarşısına çıxır və o, “bu mövzunu keçmişdik axı” deyir. Beşinci addım buna görə var.

Pillə	Nə edirsən	Nəyi göstərir
1 · Nümunəyə oxşar məsələ	Dərslikdəki nümunənin eynisini təkrar edirsən	Addımları izləyə bilirsən
2 · Yeni tipli sual	Eyni mövzu, başqa quruluş, başqa sual forması	Mövzunu anlamısan
3 · Qarışıq tapşırıq	Mövzunun adı bilinmir, üsulu özün seçirsən	**Mövzunu bilirsən**

Üçüncü pillə ən vacibidir və ən az məşq ediləndir. Ən çətin iş sualı həll etmək yox, hansı üsulun işə yaradığını tapmaqdır — bunu isə yalnız qarışıq məşqdə öyrənmək olar. Ona görə bir mövzudan iyirmi sualı ard-arda həll etmə: mövzunu ilk dəfə işləyəndə bir yerə toplanmış məşq lazımdır, mənimsədikdən sonra isə fərqli mövzuları qarışdır.

NƏ ETMƏLİ?

Bu həftə öyrəndiyin mövzudan iki sual seç: birini dərslikdən kənar mənbədən, birini keçən aylardan qalan mövzularla qarışıq həll et. Beş dəqiqəlik işdir və sənə mövzunu həqiqətən bilib-bilmədiyini deyir.

D · Düzəlt — səhvi oxu

Səhv sənə hansı hissəni hələ bilmədiyini göstərir. Ən böyük səhv isə bütün səhvləri “bilmirdim” kimi qeyd etməkdir.

№	Səhv növü	Necə tanıyırsan	Nə etməli
1	**Bilik çatışmazlığı**	Mövzunu ümumiyyətlə bilmirdim	Mövzunu yenidən öyrən — bu, təkrar deyil
2	**Unutma**	Öyrənmişdim, indi yadımda deyil	Təkrar cədvəlini yoxla — təkrar edilməyib
3	**Diqqətsizlik**	Bilirdim, amma yanlış işarələdim	Son dəqiqələr üçün yoxlama qaydası qur
4	**Sualı səhv anlama**	Sual başqa şey soruşurdu	Sualın son cümləsinin altından xətt çək
5	**Yanlış strategiya**	Bilirdim, amma uzun yolla getdim	Alternativ həll yollarını öyrən və müqayisə et
6	**Vaxt problemi**	Həll edə bilərdim, vaxt çatmadı	Vaxtlı məşq; sual seçimi
7	**Hesablama səhvi**	Yol düzgün, rəqəm səhv	Həllin bütün mərhələlərini yaz

№	Səhv növü	Necə tanıyırsan	Nə etməli
8	**Tələskənlik / həyəcan**	Bilirdim, amma tələsdim	Sınaqlarda məşq et

Bilik səhvləri (1–2) mövzuya qayıtmaqla həll olunur. Davranış və icra səhvləri (3–8) qayda, məşq və yoxlama ilə həll olunur — burada bütün mövzunu yenidən oxumaq problemi həll etmir. Səhv dəftərinin necə aparıldığı 5-ci bölmədədir.

NƏ ETMƏLİ?

Son sınağından üç səhv götür və hər birinin qarşısına yalnız səhvin növünün nömrəsini yaz. Hansı nömrə təkrarlanır?

TƏHSİL 101
UĞUR TƏSADÜF DEYİL, SEÇİMDİR.

T · Təkrarla — öyrəndiyini saxla

“Oxuyuram, amma unuduram” şikayəti yaddaşının zəif olduğunu göstərmir. Təkrar edilməyən yeni bilik zamanla zəifləyir və unudulur — bu, hamıda belədir.

Təkrar	Nə vaxt	Nə qədər	Nə edirsən
1-ci	Elə həmin gün, axşam	5–8 dəq	Kitab bağlı halda əsas nöqtələri yaz
2-ci	3-cü gün	5 dəq	3 sual həll et və ya mövzunu izah et
3-cü	7-ci gün (həftəlik təkrarda)	8–10 dəq	Çətin hissə + bir-iki yeni tipli məsələ
4-cü	21-ci gün (aylıq təkrarda)	10 dəq	Səhv dəftərindəki səhvləri yenidən həll et

TƏHSİL101 QAYDASI · 1–3–7–21

Bu, başlanğıc üçün sadə bir modeldir, universal yaddaş düsturu deyil. Aralıqlar mövzunun çətinliyinə, nə qədər yaxşı yadda qaldığına və imtahana qalan vaxta görə qısala və ya uzana bilər. Forma 9-da sütunlar məhz buna görə “Təkrar 1 / 2 / 3 / 4” adlanır — tarixi sən yazırsan.

Təkrar oxumaq deyil. Mövzunu bir də oxumaq təkrar sayılmır. Təkrar o deməkdir ki, kitab bağlıdır və sən ya yazırsan, ya da məsələ həll edirsən.

NƏ ETMƏLİ?

Hər axşam 2 dəqiqə: təkrar cədvəlini aç, bugünkü təkrarları et, xanaları işarələ. Bu iki dəqiqə bütün sistemin dayaq nöqtəsidir.

TƏHSİL 101
UĞUR TƏSADÜF DEYİL, SEÇİMDİR.

Bir mövzunun tam gedişi

Nümunə: kvadrat tənliklər, çərşənbə axşamı öyrənilir. Vaxtlar nümunədir.

Gün	Addım	Konkret iş	Vaxt
Çərşənbə axşamı	**Ö**	Mövzunu oxu, nümunələri anla, hissələrə ayır	45 dəq
Həmin axşam	**Y**	Kitabı bağla, düstur və qaydaları öz sözlərinlə yaz	10 dəq
Həmin axşam	**T**	10 məsələ — sonuncu ikisi nümunələrə oxşamasın	35 dəq
Ertəsi gün	**D**	Səhvləri dəftərə yaz, növünü tap, qayda çıxar	10 dəq
Ertəsi gün · həftə sonu · növbəti həftə	**T**	5 sual · 5 sual + çətin məsələ · həftəlik təkrarda 5 sual	30 dəq
Bir neçə həftə sonra	**D + T**	Səhv dəftərindəki səhvləri yenidən həll et	10 dəq

İlk gündən sonra əlavə vaxt cəmi yarım saat civarındadır və həftələrə yayılıb. Bu, əlavə iş deyil — ilk gün öyrəndiyini qorumağın ən asan yoludur.

> İŞ DƏFTƏRİ
>
> **Forma 9 · Təkrar İzləmə Cədvəli** (bu həftə öyrəndiyin üç mövzunu planlaşdırdığın tarixlərlə yaz) və **Forma 8 · Mövzu İzləmə Cədvəli** (ümumi mənzərə üçün).

TƏHSİL 101
UĞUR TƏSADÜF DEYİL, SEÇİMDİR.

BÖLMƏ 4

Plan: ay, həftə, gün

İnternetdə gördüyün cədvəllərin əksəriyyəti işə yaramır, çünki onlar ideal şagird üçün qurulub: səhər altıda oyanan, heç vaxt yorulmayan, ailəsi və telefonu olmayan şagird üçün. Yüz faiz icra üçün qurulmuş plan birinci həftədə pozulur. Problem səndə deyil — plandadır.

Planlaşdırmanın dörd qaydası

01 **Əvvəl sabit blokları yaz.** Məktəb, hazırlıq, yol, yemək, yuxu. Plan qalan vaxtda qurulur — "olmalı olan vaxt"da yox.

02 **Boşluq saxla.** Günün hamısını doldurma. Bir işin nə qədər çəkəcəyini demək olar hamı az qiymətləndirir: təxminini yaz, sonra üzərinə bir az əlavə et.

03 **Ən çətin işi ən yaxşı vaxta qoy.** Bir həftə müşahidə et və ən çətin fənni ora qoy.

04 **Vaxt yox, iş yaz.** "18:00–19:00 riyaziyyat" zəif plandır; "18:00–19:00 kvadrat tənliklər, 20 məsələ" daha yaxşı və real plandır. Birinci planda sadəcə saatlar keçə bilər, ikincidə isə konkret iş bitir.

Aylıq və həftəlik bölgü

Ayı yalnız mövzu sayı ilə doldurma və təkrar üçün vaxt saxla; yoxsa dekabrda sentyabr mövzuları unudulur. Faydalı bölgü təxminən belədir: vaxtın çox hissəsi yeni mövzuya, üçdə birə yaxını təkrar və özünüyoxlamaya, qalanı səhv və sınaq analizinə. Nisbətlər ilin mərhələsinə görə dəyişir.

Həftəsonu planı. Həftəsonunun məqsədi çox oxumaq deyil — çatdırmadıqlarını tamamlamaq və növbəti həftənin planını qurmaqdır. Sadə quruluş: səhər ən çətin mövzu; günorta həftəlik təkrar; axşam qarışıq məsələ həlli və səhv dəftəri; 15 dəqiqə növbəti həftənin planı; ən azı yarım gün tam istirahət. Planlaşdırılmış istirahət uzun və nəzarətsiz fasilələrin qarşısını alır.

> **ÇOX HAZIRLIĞI OLAN ŞAGİRD**
>
> Həftədə dörd-beş hazırlıq günün varsa, ən böyük risk fərdi işin tamamilə dayanmasıdır: hazırlıqda kobud desək öyrədilirsən, evdə isə öyrənirsən. Hazırlıqdan sonra həmin gün axşam o gün keçdiyin dərsin təkrarına və dərsdə yazdığın misalların təhlinə təxminən 30 dəqiqə vaxt ayrılsın — yatmazdan əvvəl yox. Hazırlıq olmayan günlərdə əsasən çoxlu məsələ həlli, mövzunun möhkəmləndirilməsi, təkrar və səhv təhlili et. Həftədə ən azı heç olmasa yarım gün isə istirahətə vaxt ayrılsın və yuxu rejiminə və sağlam qidalanmaya ciddi əməl edilsin.
>
> - **Qeyd: Sadəcə bu hissəni tətbiq etmək belə sənə təhsil və şəxsi həyatında ciddi fayda gətirəcək.**

Sinif	Gündəlik vaxt — nümunədir, norma deyil
9-cu sinif	Təxminən 2–2,5 saat fərdi hazırlıq. Bu mərhələdə vərdiş qurmaq saatdan vacibdir.
10-cu sinif	Təxminən 2–3 saat; bu vaxtın bir hissəsi keçmiş sinif mövzularına ayrılsın.
11-ci sinif	Təxminən 3–4 saat; buraxılış və blok fənləri planda ayrı sətir kimi görünsün.

Real müddət səviyyəndən, məktəb yükündən, hazırlıq sayından, yol vaxtından və yuxundan asılıdır. Saat toplamaq öyrənmək deyil: əsas ölçü tamamlanan konkret işdir.

Enerji: planın yazılmayan sətri

Plan qurarkən üç şey adətən yazılmır — sonra isə planı məhz onlar pozur.

01

Yuxunu plandan əvvəl qoy

Yatma və oyanma saatını cədvəlin ilk sətrinə yaz, qalan vaxtı sonra böl.

02

Fasiləni planla

Fasilə plandan kənar hadisə deyil, planın hissəsidir. Yazılmayan fasilə uzanır.

03

Telefon saatını təyin et

Qadağa deyil — cədvəl. Bir dəfə yazılır (Forma 13) və il boyu qalır.

Az yuxu ilə çox saat oxumaq, kifayət qədər yuxu ilə bir qədər az oxumaqdan adətən zəif nəticə verir. Praktik arqument də var: imtahan adətən səhər keçirilir, ona görə ən azı son aylarda rejimini imtahan saatına uyğunlaşdır. Enerjin azalanda üç sual ver: bu həftə orta hesabla neçə saat yatmışam, son üç gündə heç hərəkət etmişəmmi, fasilələrdə həqiqətən dincəlirdimmi yoxsa ciddi faydası olmurdu? İkisinin cavabı mənfidirsə, məsələ çox vaxt “motivasiya” deyil — istirahətin çatışmazlığıdır.

Bu bölmədə tibbi məsləhət verilmir. Yuxu və ya davamlı yorğunluqla bağlı problemin varsa, həkimə müraciət et.

> İŞ DƏFTƏRİ
>
> **Forma 7 · Həftəlik Plan (əsas forma)** — əvvəl yalnız sabit blokları doldur. Lazım olan günlərdə Forma 6 · Gündəlik Plan; ay üçün Forma 5; telefon üçün Forma 13.

TƏHSİL 101
UĞUR TƏSADÜF DEYİL, SEÇİMDİR.

DAYANACAQ 2

ÖYTDT və plan

5 dəqiqə.

ÖYTDT-nin hansı addımını indiyə qədər etmirdim?
Bu həftə öyrəndiyim mövzunu hansı yeni tipli sualda yoxlayacağam?
Həftəlik təkrar günüm və səhv dəftərini yazdığım saat:
Gündə dərsə ayıra bildiyim real vaxt / yatma saatım:

TƏHSİL 101
UĞUR TƏSADÜF DEYİL, SEÇİMDİR.

BÖLMƏ 5

Səhv və sınaq

Sistemi bu gün düzəldirsən, imtahanda təsiri xeyli sonra görünür. Şagirdlərin çoxu məhz bu aralıqda sistemi tərk edir, çünki nəticə hələ görünmür. Halbuki sistem fayda verir — sadəcə biraz səbrli olub çalışmağa davam etmək lazımdır.

Səhv dəftəri

Səhv dəftəri məhz sənin üçün yazılmış materialdır: imtahandan bir həftə əvvəl 500 səhifəlik dərsliyi yox, onu oxuyacaqsan. Hər səhv üçün beş sətir yazılır, artıq yox.

Sətir	Nümunə
1. Sual (mənbə / nömrə)	Sınaq 3, riyaziyyat, sual 18 — kvadrat tənliyin kökləri
2. Mənim səhvim	Diskriminantı düz tapdım, kök düsturunda məxrəci səhv yazdım
3. Səhv növü	7 — hesablama səhvi
4. Doğru yol (1–2 cümlə)	Kök düsturunda məxrəc 2a-dır
5. Mənim qaydam	**Kök düsturunu yazanda əvvəl məxrəci yazıram, sonra sürəti**

Beşinci sətir ən vacibidir və ən çox buraxılan sətirdir. Səhvi qeyd etmək kifayət deyil: eyni səhvin təkrarlanma riskini azaltmaq üçün özünə konkret bir qayda yazmalısan. Bir səhvi düzəltmək o deməkdir ki, həmin sualı bir müddət sonra köməksiz həll edə bilirsən — ona görə səhv dəftərindəki suallar yenidən həll edilir.

TEZ-TEZ EDİLƏN SƏHV

Səhv dəftərinə bütün həlli köçürmək. Uzun çəkir və dəftər bir neçə həftədən sonra tərk edilir. Qayda: bir səhv üçün ən çoxu iki dəqiqə. Səhv dəftəri sürətli olmalıdır, gözəl yox.

Dəftər nə vaxt oxunur? Hər həftə — həftəlik təkrarın içində, 10 dəqiqə. Hər ayın sonunda — səhv növlərini say; hansı növ artır, o növ üçün ayrıca qayda lazımdır. Sınaqdan əvvəl — son 20 dəqiqə yalnız səhv dəftəri. İmtahandan bir həftə əvvəl — dəftər əsas materiala çevrilir.

İŞ DƏFTƏRİ

Forma 10 · Səhv Dəftəri. Son sınağından üç səhvi beş sətirlik formatla yaz.

Sınaq və 7 addımlı analiz

Sınaqdan çıxan şagirdlərin ilk sualı adətən eyni olur: “Neçə bal yığdın?” Sual pis deyil, sadəcə çox fadasızdır. Sınağın əsas məhsulu bal deyil, ondan sonra qurduğun düzəliş planıdır.

Sınaq üç iş görür: hazırkı səviyyəni ölçür, imtahan simulyasiyası edir, vaxt idarəsini və təzyiq altında düşünməyi məşq etdirir. Hansı aralıqlarla edilməlidir: ilin əvvəlində ayda bir, imtahan dövrünə yaxınlaşdıqca daha tez-tez.

> **TEZ-TEZ EDİLƏN SƏHV**
>
> Ard-arda sınağa gedib heç birini analiz etməmək. Analiz edilməyən sınaq öyrənmə dəyərinin böyük hissəsini itirir və üstəlik sənə “işləyirəm” hissi verir. **Qayda**: sınaqdan sonra analiz üçün vaxt ayırmırsansa, sınağa getməyin ciddi faydası olmayacaq.

№	Addım	Sual	Nəticə
1	**Nəticə**	Ümumi bal və fənlər üzrə bölgü nədir?	Rəqəmi yaz, şərh etmə
2	**Vaxt**	Harada vaxt çatmadı, harada çətinlik çəkdim?	Vaxt xəritəsi
3	**Səhvlər**	Hansı sualları səhv etdim? Hansılarını təxmin etdim?	Səhvlər siyahısı
4	**Səhv növləri**	Hər səhv 8 kateqoriyadan hansıdır? (3-cü bölmə)	Növlər üzrə say
5	**Boşluqlar**	Hansı mövzular təkrarlanır?	Mövzu siyahısı
6	**Düzəliş planı**	Bu mövzuları hansı gün, necə tamamlayacağam?	Həftəlik plana yazılmış tapşırıqlar
7	**Növbəti hədəf**	Növbəti sınaqda nəyi dəyişəcəyəm?	**Bir cümləlik hədəf**

Yeddinci addımda bir qayda var: bir sınaqdan bir dəyişiklik. Sınaq balları düz xətlə artmır — dalğalanır, çünki sınaqların çətinliyi və mövzu bölgüsü fərqli olur. Analizi mümkünsə 48 saat ərzində et: gec analiz edilən sınaq dəyərinin bir hissəsini itirir, çünki nə düşündüyünü artıq xatırlamırsan.

İrəliləyişi bal olmadan görmək

Nəticə göstəriciləri (sınaq balı, məktəb qiyməti) ayda bir ölçülür və gec dəyişir. Proses göstəriciləri hər həftə ölçülür və tez dəyişir. Sistemi proses göstəricilərinə görə idarə et, nəticəyə görə istiqaməti yoxla.

5 / 4
Plan icrası
Planlaşdırdığım günlərdən neçəsini etdim

12 / 10
Təkrar icrası
Planlanmış təkrarlardan neçəsini etdim

6
Yenidən həll edilmiş səhv
Səhv dəftərindən neçəsini yenidən həll etdim

2
Yeni mövzu
Bu həftə neçə yeni mövzu bitirdim

Hər həftənin sonunda bu dörd rəqəmi yaz — bir dəqiqəlik işdir, faiz hesablamağa ehtiyac yoxdur. Ayda bir dəfə isə 15 dəqiqə ayır və beş suala cavab yaz.

№	Aylıq sual	Nə axtarırsan
1	Bu ay hansı mövzuları tamamladım? (izah edirəm və yeni məsələdə tətbiq edirəm)	Tamamlanmış mövzu sayı
2	Hansı davranışım bu ay yaxşılaşdı?	Davam etdiriləcək bir fəaliyyət
3	Hansı səhv növü hələ də təkrarlanır?	Növ üçün yeni qayda
4	Gələn ay üçün bir dəyişiklik nədir?	Yalnız bir dəyişiklik
5	**Sistemimin hansı hissəsi fayda vermir və niyə?**	**Silinəcək və ya dəyişiləcək hissə**

Beşinci sual ən vacibidir. Sistem toxunulmaz deyil — o, sənə xidmət etməlidir. Fayda verməyən hissəni dəyişdirmək uğursuzluq deyil, idarəetmədir.

> İŞ DƏFTƏRİ
>
> **Forma 11 · Sınaq Analiz Forması** və **Forma 12 · Aylıq Özünüqiymətləndirmə.** Həftəlik dörd rəqəm Forma 7-nin aşağısındadır.

TƏHSİL 101
UĞUR TƏSADÜF DEYİL, SEÇİMDİR.

BÖLMƏ 6

Plan pozulanda

Motivasiya sabit deyil: sentyabrda yüksəkdir, oktyabrda azalır, yaxşı sınaqdan sonra artır, az bal yığdığın sınaqdan sonra yenidən aşağı düşür. Sistemini yalnız motivasiyalı günlərə görə qursan, ilin böyük hissəsini itirəcəksən. Bu bölmə üç halın planıdır.

1 · Pis gün → Minimum Gün

Minimum Gün — ən yorğun və ya vaxtı ən az olan gündə belə edə biləcəyin ən kiçik real plandır. Məqsədi irəliləmək deyil, davamlılığı qorumaqdır. Bu, elmi model deyil — Təhsil101-in praktik qaydasıdır.

A · 10 dəq

Ən qısa

Bugünkü təkrarlar (5 dəq) · 3 məsələ (5 dəq)

B · 15 dəq

Orta

Bugünkü təkrarlar (7 dəq) · 5 məsələ (8 dəq)

C · 25 dəq

Genişlənmiş

Təkrarlar (10 dəq) · 5 məsələ (10 dəq) · bir səhvi yenidən həll (5 dəq)

Birini seç və ya özünə uyğun dördüncüsünü yaz. Minimum Gün planın ilin sonuna qədər dəyişməz qalır. Belə günlərdə çox vaxt 15 dəqiqə üçün oturursan, daha çox işləyirsən — amma bu, bonusdur; öhdəliyin yalnız seçdiyin minimumdur.

TEZ-TEZ EDİLƏN SƏHV

“Bu gün onsuz da az vaxtım var, sabahdan yenidən başlayaram.” Bir günü buraxmaq bütün sistemi pozmur; əsas məsələ fasilənin uzanmasına imkan verməməkdir. Qısa gün sıfır gündən qiymətlidir.

2 · Zəif sınaq → ilk 24–48 saat

Əvvəlki sınaqdan aşağı bal aldın. İlk dəqiqələrdə beynindən keçənlər təxminən bunlardır: “deməli heç nə öyrənməmişəm”, “hamı irəliləyir, mən geridəyəm”. Bu reaksiya normaldır — amma qərar vermə anı deyil.

Emosional reaksiya	Analitik reaksiya
“Pis nəticə aldım” → mən zəifəm	“Pis nəticə aldım” → nə baş verdi?
Sistemi dərhal dəyişmək	Bir neçə sınağın istiqamətinə baxmaq
Bir neçə gün heç nə etməmək	Minimum Günə keçmək və davamlılığı qorumaq
Başqaları ilə müqayisə	Öz keçmiş göstəriciləri ilə müqayisə

Praktik qayda: ilk saatlarda nəticəni qəbul et və böyük qərar vermə — “kursu dəyişirəm”, “bloku dəyişirəm”, “bu il itdi” tipli qərarlar adətən emosiya yüksək olanda verilir. Sonrakı bir-iki gün ərzində sınağı sakit şəkildə analiz et və düzəliş planı qur. Bu, sərt zaman həddi deyil; məqsəd sınağı hələ yadında ikən təhlil etməkdir.

Nəticənin zəifləməsinin bir hissəsi adətən bilikdən yox, sınağın çətinliyindən, vaxt idarəsindən, hesablama və diqqət səhvlərindən gəlir. Bunlar bir neçə həftədə düzələ bilən şeylərdir. Analizdən sonra rəqəm eyni qalır, mənası dəyişir. Sən başqasının başlanğıc nöqtəsini bilmirsən — faydalı müqayisə belə olmalıdır: sentyabrdakı sənlə indiki sənin arasındakı fərq.

> **Bir sınaq bir hökm deyil. Əvvəl sakitləş, sonra analiz et.**

3 · Plan tamamilə dağılanda

Bəzən bir gün yox, bütün həftə alt-üst ola bilər: xəstələnirsən, ailədə nəsə olur, imtahan cədvəli dəyişir. Bu halda köhnə planı bərpa etməyə çalışma — o plan artıq keçmiş həftə üçün qurulmuşdu.

01 **Yeni həftəlik plan yaz.** Sıfırdan, bu günün reallığına görə. Köhnə planın icra olunmayan sətirlərini köçürmə.

02 **Yalnız iki şeyi geri qaytar.** Təkrar cədvəli və səhv dəftəri. Qalanı sonra qayıdacaq.

03 **Birinci həftə yalnız Minimum Gün planını tətbiq et.** Sistemi tam sürətlə başlatmaq ikinci həftədən sonra.

> İŞ DƏFTƏRİ
>
> Öz Minimum Gün planını yaz və görünən yerə yapışdır. Vərdişləri izləmək üçün **Forma 14 · Vərdiş İzləyicisi.**

TƏHSİL 101
UĞUR TƏSADÜF DEYİL, SEÇİMDİR.

BÖLMƏ 7

İmtahan dövrü

İmtahanda bal itirməyin iki yolu var: bilməmək və bildiyini tətbiq edə bilməmək. Bu bölmə birincisi haqqındadır — imtahana qədər qalan həftələrin necə bölünəcəyi haqqında.

Son 30 günün üç qaydası

01

Yeni mövzu axını dayanır

İstisna yalnız yüksək əhəmiyyətli və real vaxtda tamamlana biləcək kritik boşluqlardır.

02

Səhv dəftəri əsas material olur

İmtahandan bir həftə əvvəl 500 səhifəlik dərsliyi yox, öz dəftərini oxuyursan.

03

Sistem son həftədə dəyişmir

Yeni cədvəl, yeni mənbə, yeni rejim — bu dövrdə hər dəyişiklik itki gətirir.

Son həftələr necə bölünür?

Dövr	Əsas iş
30–17 gün qalmış	Həftədə bir sınaq və analiz · zəif mövzular üzərində hədəfli təkrar · səhv dəftəri həftəlik oxunur
16–10 gün qalmış	Təkrarlar artır, yeni mövzu demək olar dayanır · səhv növləri sayılır, artan səhv növləri üçün qayda yazılır və məşq edilir.
9–3 gün qalmış	Yalnız təkrar və səhv dəftəri · bir və ya iki çox çətin olmayan sınaq · yuxu rejimi imtahan saatına uyğunlaşdırılır.
Son 2 gün	Yeni mövzu öyrənilmir· səhv dəftərinə baxılır · sənəd, ləvazimat və digər şeylər hazırlanır

Vaxt azalanda nə etməli?

Tez-tez görülən hallar dərs saatını kəskin artırmaq və yuxunu vaxtını azaltmaqdır; bu, adətən yorğunluqla nəticələnir. Daha faydalı yol dörd addımdır: qalan həftələri say; mövzuları əhəmiyyətinə görə sırala (hər iki imtahanda lazım olan kəsişən mövzular birinci); çatdıra bilməyəcəklərini siyahıdan çıxar — siyahıda qalan, amma edilməyən mövzu hər gün enerji aparır; qalan vaxtı təkrar və analizlərlə balanslaşdır.

TEZ-TEZ EDİLƏN SƏHV

Son günlərdə gecə rejiminə keçmək. İmtahan adətən səhər saatlarında keçirilir; rejimi son həftədə dəyişmək imtahan günü ciddi fəsadlara səbəb ola bilər.

BU KİTABIN SƏRHƏDİ

İmtahan anının özü — həyəcanın idarəsi, vaxt bölgüsü, keçid üsulları, çətin sualda nə qədər qalmaq — İmtahan Taktikaları vəsaitinin işidir. Bu vəsait imtahana qədər necə getməli olduğunu idarə edir, o vəsait isə imtahan otağında nə edəcəyini. Strategiya oxumaqla mənimsənilmir — sınaqlarda məşq ediləndə mənimsənilir; ona görə həmin vəsaiti imtahandan ən az 2-3 ay əvvəl oxu və məşq et.

İŞ DƏFTƏRİ

Forma 15 · İmtahana Son 30 Gün Planı və **Forma 16 · İmtahan Günü Yoxlama Siyahıları.**

TƏHSİL 101
UĞUR TƏSADÜF DEYİL, SEÇİMDİR.

BÖLMƏ 8

Sənin sinfin

Əslində bu, səkgizinci mərhələ deyil. Əvvəlki yeddi bölmənin cavabı eyni qalır — dəyişən yalnız hansı işin birinci sırada olması və ilin son mərhələsinin təqvimdə hara düşməsidir.

	Sentyabr	Okt–Noy	Dek–Yan	Fev–Mart	Son mərhələ
9-cu sinif	Baza qiymətləndirməsi, sistem	Baza boşluqları + cari mövzu	Buraxılış fənləri, istiqamət araşdırması	Sınaqlar + istiqamət qərarı	**Təkrar və strategiya — adətən aprel**
10-cu sinif	Sistem + 9-cu sinif təkrarı	Cari mövzu + keçmiş mövzu	9-cu sinif mövzularının tamamlanması	Blok istiqamətinin aydınlaşması	**Format tanışlığı — məktəb ilinin sonuna qədər**
11-ci sinif	İki xəttin ayrılması	Blok və buraxılış mövzuları balansda	Buraxılış bir qədər üstünlükdə, paralel blok mövzuları da oxunur	Buraxılış üstünlükdə — fevralın sonu – martın əvvəli	**Yalnız blok / qəbul — may sonuna qədər**

Eyni suallar, fərqli sıralama. Dövrlər təxminidir və ildən-ilə dəyişir; dəqiq tarix üçün cari ilin DİM təqvimini yoxla.

9-cu sinif

9-cu sinif iki işi eyni anda görməli olan ildir: buraxılışa hazırlaşmaq və növbəti təhsil mərhələsini müəyyənləşdirmək — ümumi orta təhsilə davam, kollec, təmayül sinfi və ya peşə təhsili. İkincisi çox vaxt unudulur və tələsik qərarlara səbəb olur.

Bu ilin üç əsas işi	Üç risk
1. Bazanı tamamlamaq. Bəzi çətinliklərin səbəbi əvvəlki siniflərdən qalan boşluqlardır. Riyaziyyatda bu xüsusilə aydın görünür: məsələn, kəsrlərdə, tənliklərdə çətinlik çəkən şagird digər bütün mövzularda çətinlik çəkir.	Baza boşluğu indi bağlanmasa, 10 və 11-ci sinifdə də səninlə olacaq.
2. Vərdiş qurmaq. Bu il qurduğun öyrənmə vərdişləri növbəti iki ilin bazasıdır.	Gec başlamaq: son mərhələ təkrar üçündür, boşluq doldurmaq üçün deyil.
3. İstiqaməti araşdırmaq. Qərarı son aya saxlama — araşdırmanı qış aylarından başlat.	Qərarı tələsik vermək: səhv istiqamət

10-cu sinif

10-cu sinif gözləmə ili deyil. Ən çox eşitdiyim cümlə budur: “Hələ vaxta var, 11-ci sinifdə daha ciddi oxuyacağam”. Bu cümləni deyən şagird 11-ci sinifdə iki işi eyni anda görməli olur — həm yeni mövzu öyrənmək, həm keçmiş boşluqları doldurmaq.

Bu ilin üç əsas işi	Üç risk
1. Bazanı bağlamaq. 9-cu sinif mövzuları qış yarımilinin sonuna tamamlanmalıdır — onlar blok imtahanının təməlidir.	Təzyiq olmadığı üçün sistemin qurulmaması. Vərdiş bu il formalaşdırmaq asan, gələn il isə çətindir və sənə baha başa gələcək.
2. Gündəlik model. Məktəb mövzusu + keçmiş mövzular	Yalnız cari mövzunu oxumaq (bu bir çox hallarda mümkünsüzdür, çünki riyaziyyatda mövzular zəncirvari əlaqəlidir): il sonunda 10-cu sinifi qismən bilirsən, bazan isə çox zəifdir.
3. İstiqamət və format. Ən azı üç real alternativ; il boyu az sayda, amma müntəzəm sınaqla format tanışlığı.	İmtahan formatını ilk dəfə 11-ci sinifdə görmək.

TƏHSİL 101
UĞUR TƏSADÜF DEYİL, SEÇİMDİR.

11-ci sinif

Əsas çətinlik mövzuların çətinliyi deyil — iki hazırlığın eyni anda idarə edilməsidir: buraxılış və blok/qəbul. Nəzarətsiz buraxılsa, buraxılış yaxınlaşdıqca blok hazırlığı arxa plana keçir, çünki buraxılışın tarixi daha yaxın, təzyiqi daha çoxdur.

Bu ilin üç əsas işi	Üç risk
1. İki xətti ayrı idarə et. Plandakı hər sətir "blok" və ya "buraxılış" kimi işarələnsin: "Riyaziyyat" yox — "Riyaziyyat (blok)".	Bir sətirdə hər ikisini aparmaq: hansının geri qaldığını görmürsən.
2. Kəsişən mövzuları birinci tamamla. Hər iki imtahanda lazım olan mövzu bir işlə iki imtahan qazandırır.	Nisbəti il boyu sabit saxlamaq — bunun faydası az olacaq.
3. Yeni mövzu öyrənməyi vaxtında azalt. Fevral–martda azalır, öz imtahan dövrünə yaxın demək olar dayanır.	Buraxılış bitəndən sonra sistemi dayandırmaq. Blok/qəbul xətti mayın sonuna qədər davam edir.

TƏHSİL 101
UĞUR TƏSADÜF DEYİL, SEÇİMDİR.

DAYANACAQ 3

Sınaq, imtahan və sinif

5 dəqiqə. Cavab müsbət deyilsə, düzəlişi yanına yaz.

Son sınağımı 48 saat ərzində analiz etdimmi? Səhv növlərini sayırammı?
Mənim sinfimdə bu il birinci sırada duran iş:
Mənim imtahan dövrüm təqvimdə hansı aya düşür?
Son 30 gündə imtina edəcəyim işlər:

TƏHSİL 101
UĞUR TƏSADÜF DEYİL, SEÇİMDİR.

YEKUN

Mənim Tədris Sistemim

Kitab bitdi. İndi hər şey bir səhifəyə yığılır. Bu səhifəni doldur, çap et və hər gün gördüyün yerə as.

İLİN GEDİŞİ

HƏDƏF → HƏFTƏLİK PLAN → ÖYRƏN → YOXLA → TƏTBİQ ET → DÜZƏLT → TƏKRARLA → SINAQ → ANALİZ → YENİ PLAN

Sonra yenidən həftəlik plana qayıdırsan. Pis gün gələndə sistem dayanmır — Minimum Günə keçir.

Hədəfim (nəticə) və hazırkı başlanğıc nöqtəm:
Əsas 3 boşluğum / əsas 3 güclü tərəfim:
Həftəlik sistemim (neçə gün, hansı fənlər, təkrar günü):
Tətbiq sistemim (yeni tipli və qarışıq sualları hansı gün həll edirəm):

Səhv təhlili sistemim (nə vaxt yazıram, nə vaxt oxuyuram):
Təkrar sistemim (nə vaxt, necə izləyirəm):
Sınaq sistemim (nə qədər tez-tez, analizi nə vaxt edirəm):
Telefon qaydalarım / yatma saatım:
Minimum Gün planım:
4 əsas forma (7 · 9 · 10 · 11) — hansı gün və neçədə?

TƏHSİL 101
UĞUR TƏSADÜF DEYİL, SEÇİMDİR.

Plan pozulanda ilk edəcəyim şey:

TƏHSİL 101
UĞUR TƏSADÜF DEYİL, SEÇİMDİR.

SON SÖZ

Bir alət, bir həftə

Bu kitabdan hər şeyi bir gündə tətbiq etməyə ehtiyac yoxdur. Bir alət seç, bir həftə tətbiq et, sonra növbətini əlavə et. Sentyabrda dörd alətin dördünü də eyni anda başlatmağa çalışan şagird oktyabrda heç birini işlətmir.

Kitab boyu bir cümlə təkrarlandı, çünki bütün sistem onun üzərində qurulub: “mövzunu keçdim” “mövzunu bilirəm” demək deyil. Bilmək beş addımdır — öyrənmək, yoxlamaq, tanımadığın məsələdə tətbiq etmək, səhvi düzəltmək və təkrar etmək. Qalan hər şey — plan, sınaq, analiz, imtahan dövrü — bu beş addımın il boyu davam etməsi üçündür.

Bir də bunu yadda saxla: sistem sənə xidmət edir, sən sistemə yox. Nəyinsə fayda vermədiyini görürsənsə, dəyişdir. Fayda verməyən hissəni saxlamaq sədaqət deyil, vaxt itkisidir.

> **Oxumaq bilik yaradır. Yazmaq qərar yaradır. Tətbiq etmək nəticə yaradır.**

İndi vəsaiti bağla və növbəti həftənin planını qur.

Orxan Hüseyn

VALİDEYN ÜÇÜN

1. Sualı dəyişin: “Neçə bal aldın?” əvəzinə “Bu həftə planından neçə günü icra etdin?”
2. Sınaqdan dərhal sonra şərh etməyin; analiz bir-iki gün ərzində, sakit halda aparılır.
3. Planı övladınızın yerinə qurmayın: sabit dərs saatı və sakit şərait sizin işinizdir, plan onun işidir.
4. Yuxunu vaxt itkisi hesab etməyin: yatma saatı plandakı ilk sətirdir.
5. Sağlamlıq, əhval və ya yuxu ilə bağlı davamlı problem varsa uyğun mütəxəssisə müraciət edin.

UĞUR TƏSADÜF DEYİL, SEÇİMDİR.
Digər Təhsil101 vəsaitləri: www.tehsil101.az

Təhsil101

PRAKTİV ƏLAVƏ

Tədris İli İş Dəftəri

“Bir **Tədris İli** Necə Keçməlidir?” vəsaitinin praktik əlavəsi

PLANLA.
İZLƏ.
DOLDUR.
NƏTİCƏ GÖR.



Orxan Hüseyn
Riyaziyyat müəllimi, Təhsil mentoru

www.tehsil101.az

Bu dəftər nə edir, nəyi başqa vəsaitə buraxır?

Bir cümlə ilə: bu dəftər ilin idarəsi üçündür. O, “Bir Tədris İli Necə Keçməlidir?” kitabını icraya çevirir — başqa heç nəyi əvəz etmir.

Bu dəftər nəyi izləyir	Bu dəftər nəyi izləmir
İlin mərhələləri və aylıq–həftəlik plan	Diqqətin və mühitin idarəsi → **Diqqətsizliyi Necə Yox Edək?**
Mövzu və təkrar cədvəlləri	Öyrənmə metodunun məşqi → **Öyrənməyi Öyrənmək**
Səhvlər və sınaq analizi	İmtahan anının strategiyası → **İmtahan Taktikaları**
Aylıq özünüqiymətləndirmə	Qərar vermə və istiqamət → **Uğur Bələdçisi (şagird)**
İmtahan dövrünün planı	İxtisas siyahıları və ballar → **İxtisas Seçimi Bələdçisi**

QEYD

Kitabsız formalar sadəcə boş cədvəldir. Kitabda hansı formaya istinad edilirsə, onu həmin vaxt doldur — forma nömrələri kitabdakı istinadlarla eynidir.

TƏHSİL 101
UĞUR TƏSADÜF DEYİL, SEÇİMDİR.

© Orxan Hüseyn / Təhsil101. Bütün hüquqlar qorunur. Bu vəsait şəxsi və tədris məqsədi ilə istifadə üçün hazırlanıb. Müəllifin icazəsi olmadan vəsaitin tam və ya qismən çoxaldılması, kommersiya məqsədilə yayılması, satılması, yenidən nəşr edilməsi və ya başqa platformalarda paylaşılması qadağandır.

GİRİŞ

Bu dəftərdən necə istifadə etməli?

Sistemin əsas 4 forması

Forma 7	Forma 10	Forma 9	Forma 11
Həftəlik Plan	**Səhv Dəftəri**	**Təkrar İzləmə**	**Sınaq Analizi**
Həftədə 1 dəfə	Səhv çıxanda	Hər gün 2 dəqiqə	Hər sınaqdan sonra

Ardıcıllıq kitabdakı ÖYTDT sistemi ilə eynidir: plan qurulur, səhv oxunur, təkrar edilir, nəticə ölçülür. Vaxtın azdırsa, yalnız bu dördünü istifadə et — sistemin əsası budur.

> **DƏSTƏKLƏYİCİ FORMALAR**
>
> Forma 1, 2, 3, 4, 5, 6, 8, 12, 13, 14, 15, 16 — bunlar sistemi qurmağa, izləməyə və imtahan dövrünə hazırlaşmağa kömək edir. Sən 16 ayrı sistem qurmursan: bir sistem var, onun dörd əsas forması və on iki dəstəkləyici forması var.

Formaların üç kateqoriyası

Kateqoriya	Nə üçündür	Formalar
Qiymətləndirmə və analiz	Vəziyyəti ölçmək, səhvləri təhlil etmək	**1, 2, 10, 11, 12**
Planlaşdırma və öhdəlik	Hədəf, plan və qaydalar	**3, 4, 5, 6, 7, 13, 15, 16**
İzləmə	Mövzu, təkrar və vərdiş izləyiciləri	**8, 9, 14**

Kateqoriya hər formanın yuxarısında yazılıb. Rəngli çap məcburi deyil — rəng heç bir yerdə yeganə məlumat daşıyıcısı deyil; hər işarənin yanında yazı da var.

Çap və saxlama

- **Çap et.** Hər forma bir A4 səhifədir. Gündəlik və həftəlik planları çoxaldıb çap et — onlar il boyu təkrar istifadə olunur.
- **Hamısını bir gündə doldurma.** Formaların ardıcıllığı kitabdakı bölmələrə uyğundur.
- **Çoxaltmalı formalar:** Forma 5 (aylıq — 9 nüsxə), Forma 6 və 7 (gündəlik və həftəlik — il boyu), Forma 9, 10 və 11 (ehtiyac olduqca).
- **Qələmlə işlə.** Səhv yazmaqdan çəkinmə — bu formalar səliqə üçün yox, qərar üçündür.

SİYAHI

Formaların siyahısı

№	Forma	Kitabda	Kateqoriya	Neçə dəfə
1	Tədris İli Başlanğıc Anketi	Bölmə 1	Qiymətləndirmə	1 dəfə
2	İlin Başlanğıc Qiymətləndirməsi	Bölmə 1	Qiymətləndirmə	Hər fənn üçün 1
3	Hədəf Müəyyənləşdirmə	Bölmə 2	Planlaşdırma	1 dəfə
4	İllik Yol Xəritəsi	Bölmə 2	Planlaşdırma	1 dəfə
5	Aylıq Plan	Bölmə 2 və 4	Planlaşdırma	9 nüsxə
6	Gündəlik Plan (dəstəkləyici)	Bölmə 4	Planlaşdırma	Lazım olan günlərdə
7	**Həftəlik Plan ● ƏSAS FORMA**	Bölmə 4	Planlaşdırma	İl boyu (həftədə 1)
8	Mövzu İzləmə Cədvəli · 8A · 8B	Bölmə 3	İzləmə	Hər fənn üçün 1–2
9	**Təkrar İzləmə Cədvəli ● ƏSAS FORMA**	Bölmə 3	İzləmə	Dolduqca yenisi
10	**Səhv Dəftəri ● ƏSAS FORMA**	Bölmə 5	Analiz	Dolduqca yenisi
11	**Sınaq Analiz Forması ● ƏSAS FORMA**	Bölmə 5	Analiz	Hər sınaqdan sonra
12	Aylıq Özünüqiymətləndirmə	Bölmə 5	Analiz	Ayda 1
13	Telefon Qaydalarım	Bölmə 4	Öhdəlik	1 dəfə
14	Vərdiş İzləyicisi	Bölmə 4 və 6	İzləmə	Ayda 1
15	İmtahana Son 30 Gün Planı	Bölmə 7	Planlaşdırma	1 dəfə
16	İmtahan Günü Yoxlama Siyahıları	Bölmə 7	Planlaşdırma	1 dəfə

QEYD

Forma nömrələri əsas kitabdakı istinadlarla eynidir. Kitabda “Forma 9” deyiləndə bu dəftərdəki 9-cu forma nəzərdə tutulur. Cəmi 16 forma · 17 istifadə səhifəsi (Forma 8-in iki səhifəsi var).

SON MƏRHƏLƏ HAQQINDA

Forma 15 “imtahana son 30 gün” üçündür, konkret ay üçün deyil. Öz imtahan dövrünü kitabın 8-ci bölməsindən götür: 9-cu sinif buraxılışı adətən aprel dövrünə, 11-ci sinif buraxılışı fevralın sonu – martın əvvəlinə, blok/qəbul isə mayın sonuna düşür. 10-cu sinifdə imtahan yoxdur — Forma 15 və 16 həmin sinif üçün nəzərdə tutulmayıb. Dəqiq tarix üçün cari ilin DİM təqvimini yoxla.

Tədris İli Başlanğıc Anketi

Keçən ili qınamaq üçün deyil — oxumaq üçün. Bal yox, davranış yaz. · **Kitab: Bölmə 1**

Tarix:	
Sinif:	

1. Keçən ildə nəyi yaxşı etdim? (ən azı 2 konkret davranış)
2. Nəyi etmədim və bu, mənə nəyə başa gəldi? (səbəb → nəticə)
3. Nəyi etdim, amma faydasız idi? (vaxt itirdiyim işlər)
4. Keçən il nəticəm hansı həftədə və ya ayda dəyişdi? O zaman həyatımda nə baş vermişdi?
5. Bu il dayandıracağım bir davranış:

TƏHSİL 101
UĞUR TƏSADÜF DEYİL, SEÇİMDİR.

QEYD

"Tənbəllik etdim" analiz deyil. Davranış yaz: hansı gün, hansı saat, nə etdin və ya etmədin.

İlin Başlanğıc Qiymətləndirməsi

Hər fənn üçün ayrıca doldur. Sual sadədir: hansı mövzunu nə səviyyədə bilirəm? · **Kitab: Bölmə 1**

Fənn:	
Sinif:	
Tarix:	

SƏVİYYƏ İŞARƏLƏRİ

1 öyrənilməyib · 2 qismən bilirəm · 3 izah edə bilirəm · 4 tanımadığım yeni məsələni köməksiz həll edirəm

Mövzu	1	2	3	4	Səbəb (bilmirəm / unutmuşam / keçməmişəm)	Yenidən yoxlama

TƏHSİL 101
UĞUR TƏSADÜF DEYİL, SEÇİMDİR.

Bu fənndə ən böyük 3 boşluğum:
Bu fənndə güclü tərəflərim:

Hədəf Müəyyənləşdirmə

Nəticə hədəfi hara baxdığını göstərir; davranış hədəfi səni oraya aparır. · **Kitab: Bölmə 2**

Nəticə hədəfim (bal / qiymət / səviyyə)	
Bu hədəfi niyə istəyirəm? (hansı istiqamət və ya ixtisas üçün)	

Davranış hədəfi	Mənim öhdəliyim
Həftədə neçə gün dərsə oturacağam	
Gündə dərsə ayıra bildiyim real vaxt	
Həftəlik təkrarı hansı gün edəcəyəm	
Səhv dəftərini nə vaxt yazacağam	
Yeni tipli və qarışıq sualları hansı gün həll edəcəyəm	
Sınaqları nə qədər tez-tez verəcəyəm	
Sınaq analizini nə vaxt edəcəyəm	
Minimum Gün planım	
Bu planı davamlı tətbiq etsəm, nəticə hədəfimə yaxınlaşıramm? (dürüst cavab)	

TƏHSİL 101
UĞUR TƏSADÜF DEYİL, SEÇİMDİR.

QEYD

Əsas ölçü saat deyil — tamamlanan konkret iş və öyrənmədir. Vaxtı real günün üzərində qur: məktəb yükü, hazırlıq sayı, yol vaxtı və yuxu nəzərə alınmalıdır. Minimum Gün planını özün seçirsən (nümunə: 10, 15 və ya 25 dəqiqə — Bölmə 6).

İllik Yol Xəritəsi

Beş mərhələ. Hər mərhələnin sonunda yoxlama tarixini yaz. · **Kitab: Bölmə 2**

Sinif:	
Bu il hansı imtahan(lar)a hazırlaşıram:	

Mərhələ	Əsas məqsədim	Ediləcəklər	Etməyəcəklərim	Yoxlama tarixi
1. Sistem qurmaq · sentyabr				
2. Baza və davamlılıq · okt–noy				
3. Dərinləşmə · dek–yan				
4. Sınaq və boşluqlar · fev–mart				
5. İmtahan rejimi · öz imtahan dövrün				

TƏHSİL 101
UĞUR TƏSADÜF DEYİL, SEÇİMDİR.

Beşinci mərhələ mənim təqvimimdə hansı dövrə düşür?
Bu ilin ən böyük riski nədir və onu necə azaldacağam?
İlin sonunda özümə verəcəyim əsas sual:

9-cu sinif buraxılış: aprel dövrü · 11-ci sinif buraxılış: fevral sonu – mart əvvəli · 11-ci sinif blok/qəbul: may sonu · 10-cu sinif: məktəb ilinin sonu. Aylar Azərbaycan məktəb təqviminə uyğun təxmini istiqamətdir; dəqiq imtahan tarixi üçün cari ilin DİM təqvimini yoxla.

Aylıq Plan

Ayı yalnız mövzu ilə doldurma — təkrar üçün də yer saxla. · **Kitab: Bölmə 2 və 4**

Ay:	
Bu ayın əsas ağırlığı: ☐ yeni mövzu ☐ təkrar ☐ sınaq və analiz	

Fənn	Bu ay bitirəcəyim mövzular	Təkrar ediləcəklər	Bitmə tarixi	✓

TƏHSİL 101
UĞUR TƏSADÜF DEYİL, SEÇİMDİR.

Bu ayın birinci sırada duran işi (yalnız bir şey)
Bu ay verəcəyim sınaq(lar) və tarixi:
Ayın sonunda yoxlayacağım sual:

Gündəlik Plan

Vaxt yox, iş yaz. "18:00–19:00 riyaziyyat" zəif plandır; "18:00–19:00 kvadrat tənliklər, 12 məsələ" güclüdür. · **Kitab: Bölmə 4**

> Bu forma məcburi deyil. Sistemin əsası həftəlik plandır (Forma 7). Gündəlik planı yalnız günü sıxlaşan, çox işi olan və ya diqqətini toplaya bilmədiyin günlərdə çap et.

Tarix:	
Bu günün ən vacib işi:	

Vaxt	İş (konkret)	Fənn	Bitdi ✓

Günün sonu yoxlaması (2 dəqiqə)	Cavabım
Bugünkü təkrarları etdimmi?	

Günün sonu yoxlaması (2 dəqiqə)	Cavabım
Səhv dəftərinə bu gün nə yazdım?	
Bu gün ən çox vaxtımı nə apardı?	
Sabah dəyişdirəcəyim bir şey	

TƏHSİL 101
UĞUR TƏSADÜF DEYİL, SEÇİMDİR.

Həftəlik Plan

Əvvəl sabit blokları doldur (məktəb, hazırlıq, yol, yuxu). Plan qalan vaxtda qurulur. Boşluq saxla. · **Kitab: Bölmə 4**

Həftə:	
Bu həftənin əsas hədəfi:	

Vaxt	B.e	Ç.a	Çər	C.a	Cümə	Şənbə	Bazar

TƏHSİL 101
UĞUR TƏSADÜF DEYİL, SEÇİMDİR.

Həftəlik təkrar günüm:	
Sınaq və analiz günüm:	
Bu həftə üzərində işləyəcəyim boşluqlar:	

Həftənin sonunda dörd rəqəm — kitab, Bölmə 5. Faiz yox, sadə nisbət.

Plan icrası	Təkrar icrası	Yenidən həll edilmiş səhv	Yeni mövzu

Mövzu İzləmə Cədvəli

Bir fənn üçün ilin mövzuları. Səviyyəni dürüst yaz — bu cədvəl sənə hesabat vermək üçün deyil. · **Kitab: Bölmə 3**

Fənn:	
Sinif:	

SƏVİYYƏ

1 öyrənilməyib · 2 qismən bilirəm · 3 izah edə bilirəm · 4 tanımadığım yeni məsələni köməksiz həll edirəm

№	Mövzu	Öyrənmə tarixi	Məsələ həlli ✓	Səviyyə (1–4)
1				
2				
3				
4				
5				
6				
7				
8				
9				
10				
11				
12				
13				
14				
15				

№	Mövzu	Öyrənmə tarixi	Məsələ həlli ✓	Səviyyə (1–4)
16				

Qeyd. "İzah edə bilirəm" yaxşı səviyyədir, amma riyaziyyat və fizika kimi fənlərdə son pillə tətbiqdir: tanımadığın yeni məsələni köməksiz həll edirsənsə, mövzu hazırdır (kitab, Bölmə 3). Cədvəl dolarsa, davamı üçün Forma 8B səhifəsindən istifadə et.

TƏHSİL 101
UĞUR TƏSADÜF DEYİL. SEÇİMDİR.

Mövzu İzləmə Cədvəli — davam

Forma 8A-nın davamı. Eyni fənn üçün istifadə et və ya ikinci fənnə başla. · **Kitab: Bölmə 3**

Fənn:	
Sinif:	

№	Mövzu	Öyrənmə tarixi	Məsələ həlli ✓	Səviyyə (1–4)
17				
18				
19				
20				
21				
22				
23				
24				
25				
26				
27				
28				
29				
30				
31				
32				
33				

№	Mövzu	Öyrənmə tarixi	Məsələ həlli ✓	Səviyyə (1–4)
34				

İlin sonunda: 4-cü səviyyəyə çatan mövzuların sayı:	

TƏHSİL 101
UĞUR TƏSADÜF DEYİL, SEÇİMDİR.

Təkrar İzləmə Cədvəli

Tarixləri əvvəlcədən planla. Aralıqlar sabit deyil — mövzunun çətinliyinə görə dəyişdir. · **Kitab: Bölmə 3**

Fənn:	
Cədvəlin başlanğıc tarixi:	

Mövzu	Öyrənmə tarixi	Təkrar 1	Təkrar 2	Təkrar 3	Təkrar 4	Təkrarda nə etdim: yazdım / məsələ həll etdim

TƏHSİL 101
UĞUR TƏSADÜF DEYİL, SEÇİMDİR.

TƏHSİL101 QAYDASI · 1–3–7–21

Başlanğıc üçün 1–3–7–21 modelindən istifadə edə bilərsən: təkrarlar 1-ci, 3-cü, 7-ci və 21-ci gün. Bu, universal yaddaş düsturu deyil — çətin mövzuda aralar qısalır, asan mövzuda uzanır. Tarixi sən yazırsan.

Təkrar oxumaq deyil. Sonuncu sütun buna görə var: təkrarda ya kitab bağlı halda yazırsan, ya da məsələ həll edirsən. Hər axşam 2 dəqiqə: bu cədvəli aç, bugünkü təkrarları et, xanaları işarələ.

Səhv Dəftəri

Bir səhv üçün ən çoxu iki dəqiqə. Səhv dəftəri sürətli olmalıdır, gözəl yox. · **Kitab: Bölmə 5**

SƏHV NÖVLƏRİ

1 bilik çatışmazlığı · 2 unutma · 3 diqqətsizlik · 4 sualı səhv anlama · 5 yanlış strategiya · 6 vaxt · 7 hesablama · 8 tələskənlik / həyəcan. Siyahı bütün Təhsil101 vəsaitlərində eynidir.

Tarix	Sual (mənbə / nömrə)	Mənim səhvim	Növ	Doğru yol	Mənim qaydam	Yenidən ✓

TƏHSİL 101
UĞUR TƏSADÜF DEYİL, SEÇİMDİR.

KÖRPÜ

Hər növün səbəbi və düzəliş metodu Öyrənməyi Öyrənmək vəsaitindədir. Burada növü yalnız işarələyirsən.

Tez-tez edilən səhv. Son iki sütunu boş qoymaq. Səhvi qeyd etmək kifayət deyil: özünə konkret bir qayda yaz və həmin sualı bir müddət sonra yenidən həll et.

Sınaq Analiz Forması

Sınağın əsas dəyəri nəticədən sonrakı analizdədir. Mümkünsə 48 saat ərzində doldur. · **Kitab: Bölmə 5**

Sınaq adı / tarixi:	
Ümumi bal:	

Addım	Cavabım
1. Nəticə — fənlər üzrə bölgü	
2. Vaxt — harada çatmadı, harada çətinlik çəkdim	
2a. Hansı suallar mövzunu tanıdığım halda tanımadığım formada verilmişdi?	
3. Səhvlər — hansı suallar (nömrələr)	
4. Səhv növləri — hər növdən neçə ədəd	
5. Boşluqlar — təkrarlanan mövzular	
6. Düzəliş planı — hansı gün, nə edəcəyəm	
7. Növbəti sınaqda dəyişəcəyim BİR şey	

Səhv növlərinin sayı.

1 — Bilik çatışmazlığı		5 — Yanlış strategiya	
2 — Unutma		6 — Vaxt problemi	
3 — Diqqətsizlik		7 — Hesablama səhvi	
4 — Sualı səhv anlama		8 — Tələskənlik / həyəcan	

Bu sınağın mənə dediyi ən vacib bir şey:

Düzəliş planını hansı gün həftəlik plana (Forma 7) yazdım?

TƏHSİL 101 UĞUR TƏSADÜF DEYİL, SEÇİMDİR

Aylıq Özünüqiymətləndirmə

Ayın son bazar günü, 15 dəqiqə. Beşinci sual ən vacibidir. İkinci hissəni kitaba baxmadan yaz. · **Kitab: Bölmə 5**

Ay:	
Tarix:	

Sual	Cavabım
1. Bu ay hansı mövzuları tamamladım? (izah edirəm və yeni məsələdə tətbiq edə bilirəm)	
2. Hansı davranışım bu ay yaxşılaşdı?	
3. Hansı səhv növü hələ də təkrarlanır?	
4. Gələn ay üçün bir dəyişiklik:	
5. Sistemimin hansı hissəsi fayda vermir və niyə?	

Proses göstəriciləri — faiz yox, sadə nisbət yaz.

Göstərici	Bu ay	Keçən ay
Plan icrası (nümunə: 17 / 22 gün)		
Təkrar icrası (nümunə: 40 / 48)		
Yenidən həll edilmiş səhv sayı		
Tamamlanmış mövzu sayı		
Nəticə göstəricisi: sınaq balı / qiymət		

"Bu ay nə öyrəndim?" Kitaba baxmadan yaz; yaza bilmədiklərin hələ tamamlanmamış mövzulardır.

Fənn	Mövzu	İzah edə bildim?	Çatışmayan hissə	Təkrar tarixi

Fənn	Mövzu	İzah edə bildim?	Çatışmayan hissə	Təkrar tarixi

Telefon Qaydalarım

Bu, qadağa deyil — cədvəldir. Hamısını birdən tətbiq etmə: həftədə bir qayda əlavə et. · **Kitab: Bölmə 4**

1. Dərs vaxtı telefon harada olacaq?		
2. Hansı bildirişləri söndürəcəyəm?		
3. Telefonu hansı saatlarda yoxlayacağam? (gündə 2–3 dəfə)		
4. Səhərin ilk və gecənin son hissəsi ekransız olacaqmı?		
5. Dərs masamda nə olacaq / olmayacaq?		
6. Ekran vaxtı hesabatına hansı gün baxacağam?		
7. Mənim əlavə qaydam:		

Qaydanı pozsam, nə edəcəyəm? (cəza yox — düzəliş)

İmza:	
Tarix:	

Qeyd. Məqsəd telefonu qadağan etmək deyil. Məqsəd bunu əvvəlcədən müəyyənləşdirməkdir: telefona hansı saatlarda baxıram və hansı saatlarda ona baxmıram.

TƏHSİL 101
UĞUR TƏSADÜF DEYİL, SEÇİMDİR.

Vərdiş İzləyicisi

Eyni anda üçdən çox vərdiş izləmə. Boş xana uğursuzluq deyil — məlumatdır. · **Kitab: Bölmə 4 və 6**

Ay:	
Minimum Gün planım:	

Bu ay izlədiyim vərdişlər — ən çoxu 3.

Vərdiş	1	2	3	4	5	6	7	8	9	10	11	12	13	14	15	16
1																
2																
3																

Vərdiş	17	18	19	20	21	22	23	24	25	26	27	28	29	30	31
1															
2															
3															

TƏHSİL 101
UĞUR TƏSADÜF DEYİL, SEÇİMDİR.

Ayın sonunda: hansı vərdiş ən sabit getdi? Hansı pozuldu və niyə?

Qeyd: Bir gün buraxmaq vərdişin formalaşmasını dayandırmır. Vacib olan ardıcıl buraxmaların qarşısını almaqdır — özünü yaxşı hiss etmədiyin və ya problem olan günlərdə Minimum Gün planına keç.

İmtahana Son 30 Gün Planı

Bu dövrdə birinci sırada yeni mövzu yox — təkrar, sınaq analizi və zəif nöqtələr üzərində iş durur. · **Kitab: Bölmə 7**

Hansı imtahan: buraxılış / blok–qəbul:	
İmtahan dövrü:	
Planın başlanğıc tarixi:	

Həftə	Sınaq günü	Təkrar ediləcək mövzular	Zəif nöqtə üzərində iş
1-ci həftə · 30–24 gün qalmış			
2-ci həftə · 23–17 gün qalmış			
3-cü həftə · 16–10 gün qalmış			
4-cü həftə · 9–3 gün qalmış			
Son 2 gün			

TƏHSİL 101
UĞUR TƏSADÜF DEYİL, SEÇİMDİR.

Bu 30 gündə imtina edəcəyim işlər:
Yuxu rejimim (yatma / oyanma saatı — dəyişməz)
Sınaq strategiyamdan bu dövrdə məşq edəcəyim bir şey:

İmtahan Günü Yoxlama Siyahıları

Çap et, kəs və görünən yerə as. Bu iki siyahı düşünmək üçün deyil — icra üçündür. · **Kitab: Bölmə 7**

KÖRPÜ

Bu kartlardakı addımlar İmtahan Taktikaları vəsaitində izah olunur və sınaqlarda məşq edilməlidir. Bura yalnız icra siyahısıdır.

A — İMTAHANDAN ƏVVƏLKİ GÜN	B — İMTAHAN SƏHƏRİ
☐ Sənədlərimi hazırladım	☐ Adi saatımda oyandım
☐ Lazım olan ləvazimatı hazırladım	☐ Adi səhər yeməyimi yedim
☐ Yol və çıxış vaxtını yoxladım	☐ Sənədləri yenidən yoxladım
☐ Yeni mövzuya başlamadım	☐ Yeni material oxumadım
☐ Yalnız yüngül təkrar və səhv dəftərinə nəzər yetirmək	☐ Vaxt bölgüsü planımı xatırladım
☐ Geyimimi hazırladım	☐ Həyəcan yüksələndə 4 addımı xatırladım
☐ Yatma saatımı dəyişmədim	☐ Vaxtında yola çıxdım
☐ Telefonu vaxtında kənara qoydum	☐ 3 keçid üsulunu xatırladım

Mənim vaxt yoxlama nöqtələrim (məsələn: "30-cu dəqiqədə ən azı 18-ci sualda olmalıyam")

HƏYƏCAN YÜKSƏLƏNDƏ 4 ADDIM

1. Qələmi yerə qoy · 2. Beş nəfəs (4 al / 6 ver) · 3. Bir asan sual tap · 4. Davam et

İmtahandan sonra: sınaq/imtahan analizini hansı gün edəcəyəm?

Yadda saxla. İmtahan günü yeni qərar verilmir. Bütün qərarlar bu siyahılarda əvvəlcədən verilib — sənin işin yalnız icra etməkdir.

YEKUN

İş dəftəri bitdi — sistem başlayır

Bu dəftər tək başına bir sistem deyil. O, "Bir Tədris İli Necə Keçməlidir?" vəsaitinin praktik hissəsidir: kitab niyəni izah edir, dəftər isə onu icraya çevirir.

Vaxtın azdırsa, dörd formadan başla: Forma 7, 10, 9 və 11. Qalanları ilin gedişində, kitabdakı bölmələrə uyğun olaraq əlavə et.

Sistem bir baxışda

Nə vaxt	Hansı forma işləyir
Hər gün	Forma 9 (o gün təkrar varsa) · Forma 6 (yalnız lazım olan günlərdə)
Səhv çıxanda	Forma 10 (səhv dəftəri)
Hər həftə	Forma 7 (həftəlik plan) · Forma 8 (mövzu izləmə) · Forma 14 (vərdiş izləyicisi)
Hər sınaqdan sonra	Forma 11 (sınaq analizi)
Hər ay	Forma 5 (aylıq plan) · Forma 12 (özünüqiymətləndirmə)
İlin başında	Forma 1, 2, 3, 4 · Forma 13 (telefon qaydaları)
İmtahan dövründə	Forma 15 və 16 (öz imtahan dövrünə görə — kitab, Bölmə 8)

TƏHSİL 101

> **QEYD**
> Forma 10 hər gün doldurulan forma deyil: səhv çıxmayan gündə boş qalır. Vacib olan gündəlik doldurmaq yox, heç bir səhvi qeydsiz buraxmamaqdır.

QEYDLƏRİM

Formaların üzərində saxlaya bilmədiyin qeydlər

Suallar, düzəlişlər və ilin gedişində yadına düşənlər üçün.

TƏHSİL 101
UĞUR TƏSADÜF DEYİL, SEÇİMDİR